# Cinayət Hüququ

**Mövzunu təqdim edən:**

Tədris Mərkəzinin Elmi-tədqiqat bölməsinin rəisi,
hüquq üzrə elmlər doktoru Nazim Əliyev

# Cinayətin anlayışı və əlamətləri

- Azərbaycan Respublikasının 30 dekabr 1999-cu il tarixli Cinayət Məcəlləsinin 14.1-ci madddəsində cinayətə aşağıdakı məzmunda anlayış verilmişdir: “Bu Məcəllə ilə cəza təhdidi altında qadağan olunmuş ictimai təhlükəli əməlin (hərəkət və ya hərəkətsizliyin) təqsirli olaraq törədilməsi cinayət sayılır”.

# Cinayətin əlamətləri aşağıdakılardır:

- Cinayət qanunla qadağan edilən əməldir;
- Cinayət ictimai təhlükəli əməldir;
- Cinayət təqsirli əməldir;
- Cinayət cəzalanmalı olan əməldir.

# Cinayətlərin təsnifatı

| Növ | Məzmun |
|---|---|
| Böyük ictimai təhlükə törətməyən cinayətlər | • Qəsdən və ya ehtiyatsızlıqdan törədilməsinə görə azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəza nəzərdə tutulmuş əməllər, yaxud qəsdən və ya ehtiyatsızlıqdan törədilməsinə görə bu Məcəllə ilə nəzərdə tutulmuş azadlıqdan məhrum etmə cəzasının yuxarı həddi iki ildən artıq olmayan əməllər |
| Az ağır cinayətlər | • Qəsdən və ya ehtiyatsızlıqdan törədilməsinə görə nəzərdə tutulmuş azadlıqdan məhrum etmə cəzasının yuxarı həddi yeddi ildən artıq olmayan əməllər |
| Ağır cinayətlər | • Qəsdən və ya ehtiyatsızlıqdan törədilməsinə görə nəzərdə tutulmuş azadlıqdan məhrum etmə cəzasının yuxarı həddi on iki ildən artıq olmayan əməllər |
| Xüsusilə ağır cinayətlər | • Qəsdən törədilməsinə görə on iki ildən artıq azadlıqdan məhrum etmə cəzası və ya daha ağır cəza nəzərdə tutulmuş əməllər |

**Cinayətlər çoxluğunun 3 növü fərqləndirilir**

- Cinayətlərin təkrar törədilməsi
- Cinayətlərin məcmusu
- Cinayətlərin residivi

# Cinayətin təkrarən törədilməsi

- Cinayət Məcəlləsinin eyni bir maddəsi ilə nəzərdə tutulmuş cinayətin iki dəfə və ya iki dəfədən çox törədilməsi;
- Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə nəzərdə tutulmuş iki və ya daha çox cinayətin törədilməsi (yalnız həmin Məcəllənin Xüsusi hissəsində birbaşa göstərilən hallarda ).

***QEYD: Əvvəllər törətdiyi cinayətə görə məhkum olunmuş, məhkumluğu götürülmüş və ya ödənilmiş, yaxud cinayət məsuliyyətindən azad olunmuş şəxs tərəfindən bu Məcəllənin eyni bir maddəsi ilə nəzərdə tutulmuş və ya həmin Məcəllənin Xüsusi hissəsində birbaşa göstərilən hallarda müxtəlif maddələri ilə nəzərdə tutulmuş cinayətin yenidən törədilməsi, cinayətin təkrar törədilməsi hesab edilmir.***

# Cinayətlərin məcmusu

Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə (və ya eyni maddənin müxtəlif hissələri ilə) müstəqil cinayət tərkibi yaradan cinayətlərin törədilməsi və ya bir hərəkətlə (hərəkətsizlik ilə) məcəllənin iki və ya daha çox maddəsi ilə nəzərdə tutulmuş iki və daha çox cinayətin törədilməsi

# Cinayətlər məcmusunun iki növü fərqləndirilir:

**Real məcmu**

- Müxtəlif vaxtda bir-birindən təcrid olunmuş və ya bir-birilə daxili əlaqəsi mövcud olan və Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə müstəqil tövsif edilən əməllərin törədilməsi ilə yaranır

**İdeal məcmu**

- Bir hərəkətlə (hərəkətsizliklə) bu Məcəllənin iki və daha çox maddəsi ilə nəzərdə tutulmuş iki və daha çox cinayətin törədilməsi

# Hüquqi şəxslər barəsində aşağıdakı şəxslərin əməllərinə görə cinayət-hüquqi tədbirlər tətbiq edilir:

- hüquqi şəxsi təmsil etmək səlahiyyətinə malik olan vəzifəli şəxs;
- hüquqi şəxsin adından qərarlar qəbul etmək səlahiyyətinə malik olan vəzifəli şəxs;
- hüquqi şəxsin fəaliyyətinə nəzarət etmək səlahiyyətinə malik olan vəzifəli şəxs;
- Cinayət Məcəlləsinin 99-4.1.1-99-4.1.3-cü maddələrində nəzərdə tutulmuş vəzifəli şəxslər tərəfindən nəzarətin həyata keçirilməməsi nəticəsində hüquqi şəxsin işçisi.

# Hüquqi şəxslərə tətbiq edilən cinayət-hüquqi tədbirlər

- cərimə
- xüsusi müsadirə
- hüquqi şəxsi müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə
- hüquqi şəxsi ləğv etmə

# Hüquqi şəxsə cinayət-hüquqi tədbirin növü və həddi müəyyən olunarkən nəzərə alınan hallar

- cinayətin ictimai təhlükəliliyinin xarakteri və dərəcəsi
- cinayət nəticəsində hüquqi şəxsin əldə etdiyi xeyrin həcmi və ya onun maraqlarının təmin edilməsinin xarakteri və dərəcəsi
- cinayətlərin sayı və onun (onların) nəticələrinin ağırlığı
- cinayətin açılması, onun iştirakçılarının ifşa edilməsi, cinayət nəticəsində əldə edilmiş əmlakın axtarışı və tapılmasına kömək etmə
- cinayət nəticəsində dəymiş maddi və mənəvi zərərin könüllü olaraq ödənilməsi və ya aradan qaldırılması, zərərçəkmiş şəxsə dəymiş zərərin azaldılmasına yönəldilmiş hüquqi şəxs tərəfindən görülən digər tədbirlər
- hüquqi şəxsi xarakterizə edən hallar, o cümlədən əvvəllər onun barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi, yaxud xeyriyyəçilik və ya digər ictimai faydalı fəaliyyətlə məşğul olması

# Hüquqi şəxslərə tətbiq edilən cərimənin hədləri

- böyük ictimai təhlükə törətməyən cinayətlərə görə - əlli min manatdan yetmiş beş min manatadək, yaxud cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) bir mislindən iki mislinədək miqdarda;
- az ağır cinayətlərə görə - yetmiş beş min manatdan yüz min manatadək, yaxud cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) iki mislindən üç mislinədək miqdarda;
- ağır cinayətlərə görə - yüz min manatdan yüz iyirmi beş min manatadək, yaxud cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) üç mislindən dörd mislinədək miqdarda;
- xüsusilə ağır cinayətlərə görə - yüz iyirmi beş min manatdan yüz əlli min manatadək miqdarda, yaxud cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) dörd mislindən beş mislinədək miqdarda.
- ***QEYD: Hüquqi şəxsə tətbiq edilən cərimə onun əmlakının dəyərinin yarıdan çox hissəsini təşkil edə bilməz.***

# Hüquqi şəxsi müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmənin müddətləri

- böyük ictimai təhlükə törətməyən cinayətlərə görə - bir ildən iki ilədək müddətə
- az ağır cinayətlərə görə - iki ildən üç ilədək müddətə
- ağır cinayətlərə görə - üç ildən dörd ilədək müddətə
- xüsusilə ağır cinayətlərə görə - dörd ildən beş ilədək müddətə

# Cinayət məsuliyyətindən azad etmənin əsasları

- Səmimi peşmanlıqla bağlı cinayət məsuliyyətindən azad etmə
- Zərərçəkmiş şəxslə barışmaqla bağlı cinayət məsuliyyətindən azad etmə
- Şəraitin dəyişməsi ilə bağlı cinayət məsuliyyətindən azad etmə
- Müddətin keçməsi ilə bağlı cinayət məsuliyyətindən azad etmə

# Mülkiyyət əleyhinə olan cinayətlərə görə cinayət məsuliyyətindən azad etmə

**CM-nın 178.1, 179.1, 186.1, 187.1, 187.2, 189-1.1 və 189-1.2-ci maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş şəxslərin cinayət məsuliyyətindən azad edilməsinin əsasları:**

əməli (əməlləri) törətmiş şəxs zərərçəkmiş şəxslə barışdıqda

əməli (əməlləri) törətmiş şəxs zərərçəkmiş şəxsə dəymiş ziyanı tamamilə ödədikdə

# CM-nın 178.2, 179.2 186.2.1, 189-1.2-1-ci maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş şəxslərin cinayət məsuliyyətindən azad edilməsinin şərtləri:

zərərçəkmiş şəxslə barışmalı

dəymiş ziyanı tamamilə ödəməli

cinayət nəticəsində vurulmuş ziyanın bir misli miqdarında dövlət büdcəsinə ödəniş etməli

## 178.3, 178.4, 179.3 və 179.4-cü maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş şəxslərin cinayət məsuliyyətindən azad edilməsinin şərtləri:

- zərərçəkmiş şəxslə barışmalı
- dəymiş ziyanı tamamilə ödəməli
- cinayət nəticəsində vurulmuş ziyanın iki misli miqdarında dövlət büdcəsinə ödəniş etməli

# İqtisadi fəaliyyət sahəsində olan cinayətlərə görə cinayət məsuliyyətindən azad etmə

- CM-nın 209.1, 209.2.2 və 213-cü maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş şəxs cinayət nəticəsində vurulmuş ziyanı tamamilə ödədikdə cinayət məsuliyyətindən azad edilir;
- 192, 192-1, 193, 195, 195-1, 196, 197, 198, 202-2, 203, 203-1.1, 205-2, 209.2.1, 209.3, 210, 211, 212 və 213-2-ci maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş və cinayət nəticəsində vurulmuş ziyanı tamamilə ödəmiş və ya cinayət nəticəsində əldə edilmiş gəliri tamamilə dövlət büdcəsinə köçürmüş şəxs, bundan əlavə vurulmuş ziyanın (əldə edilmiş gəlirin) bir misli miqdarında dövlət büdcəsinə ödəniş etdikdə cinayət məsuliyyətindən azad edilir.

# Qanunsuz sahibkarlıq fəaliyyətinə görə cinayət məsuliyyətinin şərtləri

- qanunla müəyyən edilmiş qaydada dövlət qeydiyyatına (vergi uçotuna) alınmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olma;
- Xüsusi razılıq (lisenziya) tələb olunduğu halda belə razılıq olmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olma;
- Lizensiya şərtlərinin pozulması ilə sahibkarlıq fəaliyyəti ilə məşğul olma;
- Xüsusi icazə olmadan dövriyyəsi məhdudlaşdırılmış əşyalardan istifadə etməklə sahibkarlıq fəaliyyəti ilə məşğul olma;
- qeyd edilən əməllərin vətəndaşlara, təşkilatlara və ya dövlətə xeyli miqdarda ziyan vurması habelə xeyli miqdarda gəlir əldə etməklə törədilməsi

# Qanunsuz sahibkarlıq cinayətinin obyektiv cəhətinin şərtləri

## 01

maddənin dispoziyasında sadalanan 4 alternativ əməldən hər hansı birinin və ya bir neçəsinin törədilməsi

## 02

vətəndaşlara, təşkilatlara və ya dövlətə xeyli miqdarda ziyan vurma, habelə xeyli miqdarda gəlir əldə etmə

## 03

əməl ilə vurulmuş ziyan arasında səbəbli əlaqənin mövcud olması

# Lisenziya şərtlərinin pozulması halları

lisenziyada nəzərdə tutulmayan fəaliyyətlə məşğul olma

həmin növ fəaliyyətin həyata keçirilməsi üçün zəruri şərtlərə (sanitariya-gigiyenik normalara, istehsal-təsərrüfat sahəsinin ölçülərinə və s.) riayət etməmə

müəyyən məcburi şərtlərə (əmtəələrə aksiz markası yapışdırma, kassa aparatından istifadə və s.) məhəl qoymama

lisenziyada göstəriləndən artıq həcmdə məhsul istehsal etmə, işlər görmə, xidmətlər göstərmə və s.

# Yalançı sahibkarlıq cinayətinin (CM-nın 193-cü maddəsi) obyektiv cəhəti

- sahibkarlıq fəaliyyətini həyata keçirmək niyyəti olmadan müəssisə və digər hüquqi şəxsin yaradılması
- belə əməlin nəticəsində xeyli miqdarda ziyanın vurulması, habelə xeyli miqdarda gəlirin əldə olunması
- həmin əməllər ilə vurulmuş ziyan arasında səbəbli əlaqənin olması

# Gömrük ödənişlərinin ödənilməsindən yayınma (CM-nın 209-cu maddəsi)

cinayətin ictimai təhlükəliliyi

- əməlin törədilməsi ilə dövlət büdcəsinə ziyan vurulur;
- ölkə iqtisadiyyatına zərər dəyir


Gömrük ödənişləri
Gömrük rüsumu
Vergi
Gömrük yığımı
Dövlət rüsumu
Gömrük haqqı

# Vergilərin növləri

**Dövlət vergiləri**

Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilən və bütün ölkə ərazisində ödənilməli olan vergilər

**Muxtar respublika vergiləri**

Naxçıvan Muxtar Respublikasının qanunları ilə müəyyən edilən və onun ərazisində ödənilən vergilər

**Yerli vergilər (bələdiyyə vergiləri)**

Bələdiyyələrin qərarları əsasında öz ərazilərində tətbiq edilən vergilər

# Dövlət vergiləri

| |
|---|
| fiziki şəxslərin gəlir vergisi; |
| hüquqi şəxslərin mənfəət vergisi (bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan başqa); |
| əlavə dəyər vergisi; |
| aksizlər; |
| hüquqi şəxslərin əmlak vergisi; |
| hüquqi şəxslərin və qanunla nəzərdə tutulmuş halda fiziki şəxslərin torpaq vergisi; |
| yol vergisi; |
| mədən vergisi; |
| sadələşdirilmiş vergi |
| ***Qeyd: Muxtar respublika vergilərinə Naxçıvan Muxtar Respublikasında tutulan və yuxarıda sadalanan dövlət vergiləri aiddir*** |

# Yerli vergilər

- qanunla nəzərdə tutulmuş hallarda fiziki şəxslərin torpaq vergisi
- fiziki şəxslərin əmlak vergisi
- yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi
- bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisi

# Vergitutmanın formaları

- bilavasitə mənbədən (verginin gəlir və ya mənfəət əldə edilməsinədək tutulması)
- bəyannamə üzrə (verginin gəlir və ya mənfəət əldə edilməsindən sonra tutulması)
- bildiriş üzrə (vergitutma obyektinin dəyəri və sahəsi əsasında vergi orqanının və ya bələdiyyənin hesabladığı məbləğ üçün təqdim etdiyi tədiyə bildirişi əsasında vergi ödəyicisi tərəfindən verginin ödənilməsi)

# Vergidən yayınma cinayəti həm hərəkətlə, həm də hərəkətsizliklə törədilir

## Hərəkətlə

Vergiləri və məcburi dövlət sosial sığorta haqqlarını ödəmək vəzifəsinin yerinə yetirəlməməsi

## Hərəkətsizliklə

- vergilərin və məcburi dövlət sosial sığorta haqlarının ödəyicisi tərəfindən saxta mühasibat və vergi sənədlərinin tərtib edilməsi, həmin sənədlərə yanlış məlumatların daxil edilməsi, əmlakın, gəlirlərin və ümumiyyətlə, vergitutma obyektinin gizlədilməsi, işçilərin sayının düzgün göstərilməməsi, işçilərlə əmək münasibətlərinin rəsmiləşdirilməməsi, onların real əmək haqlarının gizlədilməsi və s;
- mühasibat və vergi sənədlərində hər şeyin qaydasında olmasına baxmayaraq, vergilərin və məcburi dövlət sosial sığorta haqlarının ödənilməməsi

**Vergidən yayınma cinayəti formal tərkiblidir**

↓

**vergiləri ödəməkdən yayınma anından cinayət başa çatmış sayılır**

Diqqətinizə görə təşəkkür edirəm.